**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İNSAN KAPİTALININ FORMALAŞMASI VƏ REALLAŞMASI PROSESİNDƏ XƏRCLƏR VƏ NƏTİCƏLƏRİN ASİMMETRİYASI: BEYNƏLXALQ TƏCRÜBƏ VƏ MİLLİ XÜSUSİYYƏTLƏR

İxtisas: 5310.01 – Dünya iqtisadiyyatı

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Rüstəmbəyova Nəzrin Hacıağa qızı**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Bakı Dövlət Universitetinin “Dünya iqtisadiyyatı” kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru,
Moskva Dövlət Universitetinin professoru
**Kaysın Azretoviç Xubiyev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Elşən Mahmud oğlu Hacızadə**

iqtisad elmləri doktoru, professor
**Səfər Həsən oğlu Pürhani**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Ələsgər Bərxudar oğlu Sarıyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurası

Dissertasiya şurasının
sədri: Əməkdar elm xadimi
iqtisad elmləri doktoru, professor
**Yadulla Həmdulla oğlu Həsənli**

________________
imza

Dissertasiya şurasının
elmi katibi: iqtisad elmləri namizədi
**Rəşad Aktiv oğlu Hüseynov**

____________
imza

Elmi seminarın
sədri: iqtisad elmlər doktoru, dosent
**Müşfiq Yelmar oğlu Quliyev**

________________
imza

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dünyada insan kapitalı sosial-iqtisadi inkişafın səmərəli və kreativ amili kimi çıxış edir. Bununla əlaqədər insan kapitalının qiymətləndirilməsinin əhəmiyyəti, onun formalaşması üçün daha optimal parametrlərinin və səmərəli reallaşdırılması üsullarının müəyyənləşdirilməsinin əhəmiyyəti artır. Burada isə, ən başlıcası, insan kapitalına sərf edilən xərclərin və gəlirlərin asimmetriyasının müəyyən edilməsi və hər bir insanın özündə əks olunan təhsil, sağlamlıq, mənəvi-mədəni dəyərlər potensialına çəkilən xərclərin gəlirlə geri qaytarılması məsələsidir.

Cəmiyyətin rifahı və təsərrüfat həyatının bütün səviyyələrində gəlirlərin insan kapitalının formalaşmasına sərf edilən xərclərdən yüksək olması müsbət asimmetriya yaradaraq iqtisadi artıma nail olunma, hər bir ölkənin rəqabət üstünlüyü qazanması üçün prinsipial əhəmiyyət kəsb edir. Müvafiq olaraq təkcə fərdi deyil, eyni zamanda korporativ və ümummilli miqyasda aktuallıq qazanmış insan kapitalı probleminə daha diqqətli yanaşma tələb olunur. Burada söhbət insan kapitalının formalaşması və reallaşma sisteminin iqtisadi inkişaf məqsədləri üçün maksimum gəlir əldə edilməsi müasir dövrün əsas paradiqmalarından biridir. Qeyd edilən problem bütün ölkələrdə yüksək əhəmiyyətə malik olmaqdadır, halbuki, onların hər birində öz xüsusiyyəti və həlli formaları mövcuddur.

Dissertasiya işində insan kapitalının formalaşması və reallaşması proseslərində asimmetriya problemlərinin həlli üzrə dünya təcrübəsi ilə yanaşı, Azərbaycan Respublikasının iqtisadi inkişafında insan kapitalının formalaşması və reallaşmasının institusional aspektləri də araşdırılır. Bu ilk növbədə dövlətin intensiv səyi ilə sosial sahədə səmərəli islahatların aparılması, bununla parallel yeni, yüksək texnologiyalarla təchiz edilmiş iş yerlərinin yaradılması məsələsi ön plana çıxır. Bütün bunlar ölkənin sosial-iqtisadi inkişaf pespektivlərinə strateji baxış sayəsində baş verir və bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xüsusi olaraq qeyd edir ki, "*Biz Azərbaycanda elmə, təhsilə, texnoloji inkişafa çox əhəmiyyət veririk ki, bizim gənclər, bizim cəmiyyətimiz biliklərə yiyələnsinlər, Azərbaycan texnoloji inkişaf baxımından geridə qalmasın. Maddi-texniki baza*

*möhkəmlənir, təhsilin keyfiyyəti yüksəlir. Bu sahəyə investisiyaların qoyuluşu həyata keçirilir, insan kapitalı investisiyalaşdırılır".*[1]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin strateji baxışlarına görə cəmiyyətin, dövlətin inkişafında əsas rol neftə və qaza deyil, insan kapitalına əsaslanmalıdır, ölkədə həyata keçirilən sistem islahatlar və konkret tədbirlərlə, ilk növbədə, insan kapitalının formalaşması sahəsinə xərclərin artırılması ilə həyata keçirilməlidir. Dissertasiya işində göstərilən məqamların elmi tədqiqatı insan kapitalının reallaşdırılması imkanlarının araşdırılması və onun milli əmək potensialının müəyyənləşdiriməsi ilə müşayət olunur.

İnsan kapitalının formalaşması və rellaşması prosesləri təbii olaraq bir-biri ilə bağlıdır, lakin çox vaxt struktur və dəyər baxımından korelyasiya olunmur. Belə olan təqdirdə yuxarıda göstərilən asimmetriya çox saylı amillərlə əlaqədar olduğunu götərir. Onların müəyyən edilməsi və tənzimlənməsi həm insanın, həm də korporativ strukturlar və milli iqtisadi sistemlərin inkişafı üçün xüsusi aktuallıq kəsb edir.

İnsana və onun əmək fəaliyyətinə olan münasibətinə praktiki olaraq bütün iqtisadi məktəblərin nümayəndələri geniş yer vermişlər. Bu onunla izah olunur ki, insan resursu, onun əmək potensialı hər zaman iqtisadi proseslərin əsasında dayanır. Bu barədə hələ Pifaqor, Aristotel, Tusi, Nizami və bir çox başqa mütəffəkirlər öz fikirlərini bildirmişlər. Lakin məhsuldar qüvvə kimi insana sistemli yanaşma və insanın milli sərvətin tərkib hissəsi kimi qiymətləndirilməsi XIX əsrin əvvəllərinə aiddir. U.Petti, A.Smit, D. Rikardo, J.S.Mill, K.Marks insanın faydalı bacarıqlarına, xüsusi ilə də əmək bacarıqlarına üstün yer verərək onu təkrar istehsal mexanizminə daxil edirdilər.

İstehsalda insan amilinin rolu və əhəmiyyəti texnoloji yeniliklərin əldə edilməsi, həmçinin biliklərin iqtisadi proseslərə təsirinin artması ilə yüksəlmişdir. XIX əsrin sonu və XX əsrin əvvəllərində iqtisadi inkişafın daha intensiv sənaye tipinə keçməsi insanların istehsal bacarıqlarına elmi marağın artmasına səbəb oldu ki, bu da A.Marşal, İ.Fişer, L.Robbins, C.Byukenen, A.Piqu, C.M.Keyns kimi alimlərin tədqiqatlarında öz əksini tapmışdır.

---

[1] Prezident İ.Əliyevin çıxışı (15 sentyabr 2017-ci il) //Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi rəsmi internet səhifə, https://president.az/articles/25232/print

İnsan kapitalı nəzəriyyəsinin inkişafında T.Veblen, D.Nort, U.Mitçell, C.Helbreyt, C.Byukenen, Q.Myurdal, R.Kouz, O. Vilyams və başqalarının tədqiqatında əks olunmuş institusional nəzəriyyə mühüm yer tutur. Onlar ilk olaraq təsərrüfat həyatında artmaqda olan qeyri müəyyənliyə diqqət yetirməyə başlamış və iqtisadiyyatın müxtəlif parametrləri arasında əlaqənin institusional nizamlanması nəzəriyyəsini formalaşdırmışlar.

XX əsrin ortalarında dördüncü sənaye inqilabı vüsət almağa başladı və təkcə insan əməyi deyil, eyni zamanda insan potensialının bütün komponentlərinə iqtisadi artım və inkişafın ən mühüm amilə çevrilməsi üçün obyektiv şəkildə ilkin şərtlər formalaşdı. İnsanların bilikləri, onların yenilikçi qabiliyyətləri rəqabət üstünlüklərinə çevrilmişdir. Müvafiq olaraq insan potensialının formalaşması və maksimum səmərəli istifadə edilməsi prosesinin tənzimlənməsi problemi ümumdövlət səviyyəsində aktuallaşmışdır. Beləliklə, insan kapitalı nəzəriyyəsinin formalaşması üçün obyektiv şərait yetişmişdir.

İnsan kapitalı nəzəriyyəsinin əsası amerikan iqtisadçıları, Nobel mükafatı laureatları Herri Bekker və Teodor Şults tərəfindən yaradılmışdır. Onlar bütün istehlak xərclərindən bəzi məsrəfləri xüsusi seçərək, onları investisiyalar kimi nəzərdən keçirmişlər. Bu isə o deməkdir ki, göstərilən məsrəflər istehlak olunduqda yox olmur, təkrar istehsal olunur, gəlir formasında artan həcmlərdə bütün investisiyalarda olduğu kimi geri qayıdırlar. Deməli, cari dövrdə vəsaitlərdən və ya istehlak mənbələrindən imtina kimi çıxış edən xərclər gələcəkdə vəsait və istehlak mənbələrinin artan həcmdə əldə edilməsinə gətirib çıxarır. Belə təxirə salınmış gəlirlərə (gələcək dövrün gəliri) ilk növbədə təhsil və səhiyyəyə sərf olunmuş məsrəfləri aid edirlər. Buraya eyni zamanda iş axtarışı xərcləri, işə düzəlmək üçün informasiyanın əldə edilməsinə sərf edilən xərclər, iş yerlərində təlim məsrəfləri də daxil edilir. Artıq sübuta yetirilmişdir ki, qeyd edilən istiqamətlərdəki məsrəflər fərdin üstünlüklərinə, gəlirlərində artımın yaranmasına səbəb olur. Yuxarıda adları qeyd edilən müəlliflərin ilkin olaraq fərdi səviyyədə araşdırmalar aparmalarına baxmayaraq bu tədqiqatlar insan kapitalının formalaşmasına çəkilən xərcləri və onların reallaşması nəticələrini əlaqələndirilməsi prinsipial əhəmiyyət kəsb edirdi. Məhz belə yanaşma insanın əmək qabiliyyətinə cəkilən xərclərlə əldə edilən gəlirlər

arasında nisbət insan kapitalı nəzəriyyəsin yaranmasını zəruri etmişdir.

İnsan kapitalı nəzəriyyəsi təkcə fərdi deyil, eyni zamanda iqtisadiyyatın mikro və makro səviyyələrində tətbiq edilmiş və C. Minser, Y.Ben-Poratt, R.Lukas, C.Psaxaropolus, L.Hansen, C.Fişer kimi müəlliflər tərəfindən araşdırılmışdır.

İnsan kapitalının formalaşması və reallaşmasının müxtəlif aspektləri (iqtisadi, demoqrafik, sosial) Azərbaycan tədqiqatçıları Ş.Muradov, T.Quliyev, R.Muradov, Q.İmanov, M.Güləliyev, N.İmanov, G.Əzizova, Q.Şamilova, R.Quliyev, Y.Həsənli və b. tərəfindən öyrənilmişdir.

Sovet və post-sovet dövrü tədqiqatçıları içərisində R.Nureyev, R.Kapelyuşnikov, K.Xubiyev, Y.Korçagin, M.Kritskiy, S.Dyatlov, A.Koritskiy, A.İ.Dobrinin və b. adlarını çəkmək olar.

İnsan kapitalı ilə bağlı cox saylı əsərlərin nəşr olunmasına baxmayaraq onun heç də bütün məsələləri nəzəri səviyyədə həll olunmayıb. Qeyd etmək lazımdır ki, insan kapitalının formalaşması prosesində xərclər və nəticələrin nisbətləri (simmetriya və asimmetriya) məsələsi hələ araşdırılmayıb. Halbuki problemin əsaslı təfsiri məsələnin belə bir aspektdə qoyuluşunun elmi və praktiki əhəmiyyətindən xəbər verir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti insan kapitalı, onun fərdi, korporativ və milli iqtisadiyyat səviyyələrində formalaşması və reallaşdırılması prosesləridir. Tədqiqatın predmeti insan kapitalına sərf edilən xərclər ilə (investisiyalar) istehsal prosesində onun istifadəsi nəticələri (gəlirləri) arasında yaranan asimmetriya və eyni zamanda həmin asimmetriyanın müxtəlif olkələrdə, o cümlədən Azərbaycanda tənzimlənməsi metodları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya işinin əsas məqsədi insan kapitalının formalaşması və reallaşması prosesində xərclər və nəticələr arasında asimmetriyanın araşdırılmasıdır. Belə bir konseptual yanaşma gəlirlərin təmin edilməsinin çox səviyyəli amili olan insan kapitalının mahiyyətini daha dolğun açmağa və bununla da onun səmərəliliyinin mühüm parametrləri və milli iqtisadiyyatın rəqabətqabiliyyəliliyin təmin olunmasında rolunu müəyyənləşdirməyə imkan verir. Göstərilən məqsədin reallaşdırılması bir sıra vəzifələrin həll edilməsini tələb edir:

1. insan kapitalının əsas xarakteristikasının onun formalaşması xərcləri və reallaşdırılması nəticələrinin nisbətləri (simmetriya və

asimmetriya) vasitəsi ilə müəyyənləşdirilməsi;

2. İnsan kapitalına xərclərin və reallaşdırılması nəticələrinin asimmetriya formalarının müsbət və mənfi kəmiyyət göstəriciləri ilə müəyyənləşdirilməsi

3. İnsan kapitalının formalaşması xərclərində və nəticələrində olan asimmetriyanın fərdi, korporativ və makroiqtisadi göstəricilərə təsirinin göstərilməsi;

4. Milli iqtisadiyyatın qlobal iqtisadi məkanda rəqabət qabiliyyətinin nəticələrinə insan kapitalının formalaşması və həyata keçirilməsində xərclər və nəticələrin asimmetriyasının təsir dərəcəsini müəyyən etmək.

5. İnsan kapitalının formalaşması və reallaşdırılması prosesində müsbət dinamikasının təmin olunmasında asimmetriyanın dövlət tənzilənməsi metodlarının nəzərdən keçirilməsi;

6. İnsan kapitalının formalaşması və reallaşdırılması xərclərində asimmetriyanın aradan qaldırılmasının beynəlxalq təcrübə və milli xüsusiyyətlərinin müqayisəli təhlilinin həyata keçirilməsi.

7. Azərbaycanda insan kapitalının formalaşması və həyata keçirilməsi prosesində asimmetrik təzahürlərin aradan qaldırılması üçün xüsusi metodların qiymətləndirilməsi.

**Tədqiqatın metodları**. Araşdırmaların nəzəri əsaslarını iqtisad elmində öz təsdiqini tapmış insan kapitalına aid konseptual yanaşmalar təşkil edir. Öyrənilən predmetin xarakterinə uyğun olaraq dialektik, sistem, struktur-finksional, institusional metodlardan istifadə edilmişdir. Araşdırma zamanı müqayisəli təhlil üsuluna geniş yer verilmişdir Müqayisəli təhlil üsulu vasitəsi ilə insan kapitalının formalaşması və reallaşdırılması prosesində asimmetrik təzahürlərlə bağlı beynəlxalq təcrübə və milli spesifikanın xarakterik xüsusiyyətləri müəyyənləşdirilmişdir. Tədqiqat zamanı asimmetriyanın hesablanılması üçün iqtisadi-statistik (ekonometrik) təhlil, ekspert–sorğu qiymətləndirmələri, model proqnoz və optimallaşdırılma üsullarından istifadə olunmuşdur

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- Xərclər və nəticələrin asimmetriyası kontekstində insan kapitalının xarakteristikasının verilmişdir.
- İnsan kapitalına xərclərin və reallaşma nəticələrinin struktur-institusional və dəyər asimmetriyasının təhlili həyata keçirilmişdir. İnsan

kapitalının formalaşması xərclərinin və reallaşması nəticələrinin asimmetriyasının müsbət və mənfi formaları müəyyənləşdirilmişdir.

- İnsan kapitalının formalaşması və reallaşması prosesində asimmetriyanın müsbət dinamikasının təmin edilməsi üçün dövlət tənzimlənməsi metodları nəzərdən keçirilmişdir.
- İnsan kapitalının formalaşması və reallaşması prosesində yaranan xərclərin asimmetriyasının aradan qaldırılmasının beynəlxalq təcrübə və milli xüsisiyyətlərinin müqayisəli təhlili həyata keçirilmişdir.
- İnsan kapitalının formalaşmasının bütün səviyyələrində (fərdi, korporativ, milli) əsas məqsəd ilk növbədə təhsil və səhiyyəyə qoyulan investisiyalardan gələn gəlirlərin müəyyənləşdirilməsidir. Bunları nəzərə alaraq, insan kapitalının formalaşması mərhələsində onun verimliyindən olan gözləntilərdən bəhs edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardır:

1. İnsan kapitalının fərdi, mikro və makro səviyyələrdə formalaşması və reallaşdırılmasında xərclərin və nəticələrin simmetriya və asimmetriyasının araşdırılması üçün kompozisiya (struktur-çoxsəviyyəli) metodoloji yanaşma işlənib hazırlanmışdır ki, bu da insan kapitalı nəzəriyyəsinin dairəsini genişləndirir;
2. Xərclərin və nəticələrin asimmetriyasının öyrənilməsinə çoxsəviyyəli metodoloji yanaşma əsasında iqtisadiyyatın müxtəlif sahələrdə və struktur bölmələrində insan kapitalının formalaşması və reallaşdırılması nəticələrinin sistemləşdirilməsi və təsnifatı verilmişdir. Asimmetriyanın müsbət və mənfi cəhətləri müəyyənləşdirilir ki, onlar da insan kapitalının toplanılması və reallaşdırılması səmərəliliyinə fərqli şəkildə təsir göstərirlər;
3. İnstitusional yanaşmanın tətbiqi əsasında insan kapitalının tətbiqinin müsbət "xarici effektləri" müəyyənləşdirilmişdir. Onların təzahürünün əsas forması iqtisadiyyatın müxtəlif sahələrində beynəlxalq əməkdaşlığın səmərəliliyi və milli iqtisadi rəqabət qabiliyyətinin artırılması probleminin aktuallaşmasıdır;
4. Kollektiv (korporativ) insan kapitalı fenomeni milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasına sinergetik təsirinin göstərdiyi açıqlanır. Bununla bağlı kadr hazırlığının, fərdi və korporativ təlimin formaları və üsulları nəzərdən keçirilir.
5. İnsan kapitalının akkumulyasiyasına sərf edilən xərclər müxtəlif

mənbələrdən və müxtəlif sahələrə qoyulan investisiyalar kimi qəbul edilir, yaranan asimmetriya isə insan potensialının tam inkişafına mane olur. Belə təhlil spektri milli insan kapitalının reallaşması ilə bağlı da aparılır ki, burada asimmetriya əsasən struktur- institusional xarakteri daşıyır;

6. Azərbaycanda ölkənin sosial-iqtisadi inkişafının strateji istiqamətlərinin reallaşdırılması məqsədinə simmetrik olan keyfiyyətli insan kapitalının formalaşdırılmasına yönəlmiş dövlət səyləri təhlil edilir;
7. İnsan kapitalının formalaşması və reallaşması prosesində xərclər və nəticələr arasında yaranan asimmetriya probleminin həllində beynəxalq təcrübə, həmçinin bu təcrübənin milli xüsusiyyətləri nəzərə alaraq istifadə edilməsi araşdırılır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**, araşdırmaların nəticələrinin insan kapitalının formalaşması sisteminin rasionallaşması və ondan daha səmərəli istifadə edilməsi baxımından insan kapitalı nəzəriyyəsinə yeni yanaşmaların müəyyənləşdirilməsinə xidmət edir. İnsan kapitalının formalaşması və reallaşmasında xərclərin və nəticələrin asimmetriyası probleminin qoyuluşu həm metodoloji, həm də tətbiqi aspektlərə malikdir. Onların içərisində diqqəti cəlb edən məsələ fərdi, korporativ və makroiqtisadi gəlirlərin insan kapitalının komponentlərinə edilən invetisiyalardan funksional asılılığının olmağı ilə bağlıdır. Məsələyə qeyd edilən aspektdə yanaşdıqda məlum olur ki, asimmetriyanın çox saylı təzahür formaları vardır ki, onlar əhəmiyyətli dərəcədə bütün fəaliyyət sahələrində iqtisadi artım və sosial inkişaf imkanlarını azaldır. Bütün bunlar onunla əlaqədardır ki, insan kapitalı sosial-iqtisadi inkişafın strateji hərəkətverici qüvvəsi kimi çıxış edir, hansı ki, lokal-istehsal prosesləri əhatə etməklə yanaşı bütün milli təsərrüfatı vahid şəkildə əlaqələndirir. Məhz bu baxımdan insan kapitalı iqtisadiyyatda bir növ meqa amil rolunda çıxış edir. Odur ki, insan kapitalının formalaşması və reallaşmasında tənzimləmə üsullarının müəyyən edilməsi və yuxarıda göstərilən asimmetrik hadisələrin aradan qaldırılması həm milli, həm də beynəlxalq rəqabət mühitində istehsal prosesləri üçün mühümdür.

Dissertasiya işində irəli sürülən müddəalar iqtisadi fəaliyyətin müxtəlif səviyyələrində proqram və layihələrin hazırlanmasında, karyera mərkəzlərinin işində, təhsil sistemi strukturlarının və əmək

bazarının fəaliyyətinin tənzimlənməsində tətbiq oluna bilər.

**Tədqiqatın approbasiya və tətbiqi.** Tədqiqatın nəticələri M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin təşkil etdiyi "Gənclərin beynəlxalq Forumu -"Lomonosov 2018", 2018 ci ildə keçirilən IV Sankt Peterburq beynəlxalq iqtisadi konfransında, 2018-ci ildə Gəncədə təbiət və iqtisad elmlərinin konfransında, həmçinin 2018-ci ildə Pyatiqorsk şəhərində keçirilmiş "Avrasiya İqtisadi Şurasının inkişaf perspektivləri" beynəlxalq konfransında, 2020–ci ildə Bakıda keçirilmiş 55-ci beynəlxalq elmi konfransda, 2021-ci ildə Moskva Dövlət Universitetində keçirilmiş "Xessin-Pavlov" oxuları, 2021-ci ildə Sankt-Peterburqrda S.Y.Vitte adına yeni sənaye inkişafı institutunda keçirilmiş "İstehsal, elm və təhsil" VIII Beynəlxalq konqressində müzakirə olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Bakı Dövlət Universitetinin "Dünya iqtisadiyyatı" kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Dissertasiya işi həcmi 223140 işarəsi olan 156 səhifədən, o cümlədən, giriş (16779 işarə), üç fəsil (I fəsil – 70914 işarə, II fəsil – 63876 işarə, III fəsil – 66663 işarə), nəticə (4908 işarə), 177 adda ədəbiyyat siyahısı, 16 cədvəl, 9 şəkil və 7 qrafikdən ibarətdir.

## DİSSERTASİYANIN MÜNDƏRİCATI:

**Giriş**

**I Fəsil. İnsan kapitalı konsepsiyasının onun formalaşması xərcləri və reallaşması nəticələri prizmasından inkişafı**

1.1. İnsan kapitalı nəzəriyyəsinin formalaşmasının əsasları

1.2. İnsan kapitalının araşdırılmasında metodoloji fərdilik

1.3.İnsan kapitalına sərf edilən xərclərin və onların nəticələrinin öyrənilməsinin institusional aspektləri

**II Fəsil. İnsan kapitalının formalaşması və reallaşması prosesində xərclərin və nəticələrin asimmetriyasının mahiyyəti və formaları**

2.1.İnsan kapitalının formalaşması və reallaşmasında asimmetrik xərclərin xarakterik xüsusiyyətləri

2.2.İnsan kapitalının formalaşması və reallaşması prosesində yaranan asimmetriyanın formaları

2.3. İnsan kapitalının formalaşması xərcləri və reallaşması gəlirləri arasında mənfi asimmetriyanın aradan qaldırılmasının beynəlxalq təcrübəsi

**III Fəsil. İnsan kapitalının formalaşması və reallaşmasının milli xüsusiyyətləri**

3.1. Azərbaycanda insan kapitalının formalaşması və reallaşmasında dövlətin rolu

3.2.Azərbaycanda insan kapitalının formalaşması və reallaşmasında asimmetriyanın aradan qaldırılması kontekstində insan kapitalının inkişafının prioritetləri

**Nəticə**

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

# MÜDAFİƏYƏ ÇIXARILAN ƏSAS MÜDDƏALAR

**Müddəa 1. Dissertasiya işində irəli sürülən əsas müddəa xərclər və nəticələrin asimmetriyası kontekstində insan kapitalının xarakteristikasının verilməsi ilə bağlıdır.**

Burada ən önəmli olan insan kapitalınına təhsil, səhiyyə, mədəniyyət amillərinin prizmasından baxılmasıdır. Onlar içərisində dominant yerdə təhsili dayanır ki və müvafiq olaraq dövlətin elm tutumlu insan kapitalının formalaşmasında mühüm rolu əsaslandırılır. Qeyd etmək lazımdır ki, elm tutumlu insan kapitalı rəqabətqabiliyyətliyin önəmli komponentidir.

Beynəlxalq təşkilatlatların məlumatlarına əsasən insanların gəlilərindəki fərqlərin yarısından çoxu təhsil səviyyəsi, qalan hissəsi isə digər amillərlə bağlıdır (səhiyyə, qabiliyyətlər, mənəvi, mədəni amillər). Beləliklə, təhsilə uzun müddətli investiya qoyuluşu insan kapitalının formalaşmasında, onun nəticəyönümlüyündə həlledici amildir və bu aşağıdakı qrafikdə öz əksini tapmışdır.




**Qrafik 1. Uzunmüddətli təhsil prosesinin gəlirlərlə nisbəti**

*Mənbə: Becker, Gary. Human Capital: A theoretical and empirical analysis with special reference to Education.-3rd ed. University of Chicago Press.2009*

Eyni zamanda insan kapitalının reallaşmasından əldə edilən gəlirlər onların formalaşmasına cəkilən xərclərə nisbətdə investisiya obyektinin imkanları və invetisiya subyektinin fərdi, korporativ və milli səviyyələrdə davranış xüsusiyyətlərinin təsirindən asılı olaraq asimmetrik olur. Tədqiqat işində insan kapitalının formalaşması və reallaşmasının asimmetriyasının çox səviyyəli təhlili göstərilir ki, göstəricilərin müsbət məcmusu sosial-iqtisadi effekt yaradır. İnsan kapitalının formalaşmasının təhsil seqmentində bu daha çox özünü biruzə verir. Məktəbəqədərki, ibtidai, orta təhsil və peşə məktəbləri, ali təhsil müəssisələri bir-biri ilə orqanik qarşılıqlı əlaqə halında insan kapitalının reallaşdırıldığı bazarın tələblərinə cavab verməlidir. Deyilənlərlə yanaşı hər bir təhsil mərhələsində insan kapitalına investisiya qoyuluşu problemi yaranır. Belə olan təqdirdə təhsilə sərf edilən xərclərin həcminin müəyyən edilməsi nəinki insan kapitalının ölçülməsi, eyni zamanda bu xərclərin maliyyələşdirilməsi mexanizminin müəyyənləşdirilməsi üçün də vacibdir.

İnsan kapitalının formalaşmasının fərdi səviyyəsi xərclər və nəticələrdəki simmetriya ilə fərqlənir. Fikrimizi bir qədər fərqli sözlərlə ifadə edərək qeyd etmək lazımdır ki, insan kapitalına investisiya qoyan investor onun reallaşmasından gəlir əldə edir. Burada simmetriya istənilən halda yaranır və bu kapital özəl və ya dövlət sektorda tətbiq edilməsindən asılı olmayaraq, həmçinin insanın hansı ölkədə yaşamasından asılı olmayaraq aşkar görünür.




**Sxem 1. İnsan kapitalına investisiya qoyuluşu səviyyələri**

*Mənbə: Müəllif tərəfindən hazırlaşmışdır*

Mikro səviyyə problemlərinə, fərdi seçimlərə və təhsilə olan tələblərə, insan kapitalına sərf edilən xərclərin və gəlirlərin korrelasiyasına həsr edilmiş çoxlu ədəbiyyatlar var. Lakin xərclər və nəticələr asimmetriyası qeyd edilən aspektdə kifayət qədər araşdırılmayıb. Bununla əlaqədar işçi ilə şirkətin qarşılıqlı əlaqələrinə diqqət yetirmək lazımdır.

Şirkət səviyyəsində peşə hazırlığı səviyyəsi, yaradıcı və işçinin yenilikçi qabiliyyətləri əsas rəqabət üstünlüyü kimi xarakterizə edilir. Şübhəsiz, şirkətlər yüksək ixtisaslı kadrları cəlb etməyə çalışırlar. Lakin şirkətlər öz işçilərinin rəqabətqabiliyyətliliyini artirmaq üçün digər yolları da istifadə edir və burada korporativ təhsil böyük rol oynayır. Belə bir üsul o qədər geniş yayılmışdır ki, iri şirkətlərin öz təhsil mərkəzləri, hətta universitetləri vardır. Korporativ təhsilin daha bir üstün cəhəti ondan ibarətdir ki, korporativ təhsildə kollektiv insan kapitalının sinergetik effektindən istifadə edilə bilir. İş yerində təhsilə və koporativ təhsilə sərf edilən xərcləri şirkətin özü ödəyir. Professional baxımdan böyümüş şirkət öz gəlirlərini, müvafiq olaraq şirkətin gəlirlərini artırırlar. Lakin təcrübədə onu da görürük ki, əksər ölkələrin əmək qanunvericiliyində işçi digər şirkətə, hətta bəzən də rəqib şirkətə

işləməyə keçdikdə şirkət tərəfindən onun təhsilinə sərf edilən vəsaitlər üçün heç bir məsuliyyət müəyyənləşdirilməyib. Müvafiq olaraq iqtisadiyyatın mikrosəviyyəsində xərclər və nəticələr arasında asimmetriya problemi yaranır ki, onun müsbət göstəricilərə doğru dönüşü isə heyətin stimullaşdırılması üçün əlavə xərclərin çəkilməsini tələb edir.

**Müddəa 2. İnsan kapitalına xərclərin və reallaşma nəticələrinin struktur-institusional və dəyər asimmetriyasının təhlili həyata keçirilmişdir. İnsan kapitalının formalaşması xərclərinin və reallaşması nəticələrinin asimmetriyasının müsbət və mənfi formaları müəyyənləşdirilmişdir.**

İnsan kapitalının formalaşması xərclərinin və reallaşması nəticələrinin asimmetriyasını bir sıra əlamətlərə əsasən təsnifatlaşdırmaq olar. Bu təsnifatı aşağıdakı kimi təqdim etmək olar:




**Sxem 2. İnsan kapitalının formalaşması və reallaşdırılmasında xərc və nəticələrin asimmetriya formaları**

*Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.*

"Asimmetriya" termininin özü bu və və ya digər təzahürün neqativ qiymətləndirilməsini nəzərdə tutur. Ancaq bazarın bütün iştirakçıları üçün belə demək mümkün deyildir. Nəzərə almaq lazımdır ki, xərclər və gəlirlər arasında asimmetriya əksinə rentabelli nəticəni təmin edən, yəni müsbət də ola bilər.

Müsbət və mənfi asimmetriyanı qrafik olaraq aşağıdakı kimi təsvir etmək mümkündür. Burada X oxu insan kapitalının formalaşmasına olan xərcləri, Y oxu isə müvafiq olaraq həmin xərclərdən əldə olunan nəticələri göstərir.




**Qrafik 2. Xərclər və nəticələrin simmetrik vəziyyətindən yayınması**

*Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.*

Ortadakı xətt xərclər və nəticələrin simmetrik bölgüsünü göstərir, yəni burada xərclər və nəticələr bir biri ilə birbaşa korrelyasiyadadırlar. Xərclər və nəticələr arasında disproporsiyanın artması ilə ya nəticələrin, ya da xərclərin artmasından asılı olaraq düz xətt sola və ya sağa doğru hərəkət edir. Simmetriya xəttinin solunda göstərilən düz xətt müsbət əyriliyi göstərir ki, bu zaman xərclər nəzərə çarpmayacaq həcmlərdə artır, nəticələr isə bunun əksinə olaraq yüksək templərlə artır. Simmetrik paylanmanın sağ tərəfindəki düz xətt isə mənfi əyrilyi göstərir. Birbaşa düz xəttin sağ tərəfdə yerləşməsi mənfi asimmetriyanı göstərir. Burada, müsbət asimmetriyadan fərqli olaraq, xərclər bir neçə dəfə artır, nəticə isə praktiki olaraq dəyişilməz olaraq qalır və ya cüzi dəyişir. Deyilənlərlə yanaşı ölkələr arasında xərclər və nəticələr asimmetriyasını və ya insan kapitalının bir dövlətdən digərinə keçidini əhatə edən daxili və xarici asimmetriyanı qeyd etmək lazımdır. İnsan kapitalının formalaşması həm təhsil, həm məşğulluq, həmçinin iş fəaliyyəti yerinin seçilməsi ilə bağlıdır. Müvfaiq olaraq burada miqrasiya xərclərinin hesablanılması tələb olunur. Məsələn, əmək bazarı haqqında informasiya əldə edilməlidir, insanın bir yerdən başqa yerə köçməsi və həmin müddətdə insanın müvəqqəti olaraq imtina etdiyi əmək haqqı hesablanmalıdır. Müvafiq olaraq bunlar miqrasiya xərcləri kimi xarakterizə edilə bilər ki, bunun nəticəsi kimi milli insan kapitalının formalaşmasına çəkilən xərclərin və reallaşmasının müsbət və mənfi asimmetriyası təsəvvürü yarana bilər.

Belə olan halda korporativ səviyyədə asimmetriya (kadr axıcılığı) aşkar görünür. Burada şirkət işçilərin təhsil səviyyəsi və ixtisas hazırlığı səviyyəsinin yüksəldilməsi üçün vəsait xərcləyir ki, mənfəətin artımını əldə etsin. Əgər əməkdaş öz iş yerini dəyişdirmək istərsə asimmetriya yaranır, zərər şirkətin gəlirlərində özünü büruzə verir. Hazır mütəxəssisi cəlb edən şirkət belə bir vəziyyətdə qazanan tərəf olur və işçinin formalaşmasına investisiya qoymadan gəlir əldə edir.

Burada xarici asimmetriyada olduğu kimi müsbət və ya mənfi asimmetriya problemi yaranır. Dəyərli kadrların itirilməsi ehtimalı bir çox şirkətlərdə, xüsusən iri yüksək texnologiyalı korporasiyalarda işçilərin həvəsləndirmə sisteminin yaradılmasına təkan vermişdir ki, bu da onunla əlaqədardır ki, işçilərə nəzərəçarpacaq məbləğdə vəsaitlər xərclənir və işçilərin itirilməsi ehtimal edilən mənfəətin itirilməsi deməkdir.




**Sxem 3.Xərclər və nəticələrin asimmetriyasının onların formalaşmasının müxtəlif səviyyələrində özünü göstərən amillərdən asılılığı**

*Mənbə:Müəllif tərəfindən hazırlanmışdır*

**Müddəa 3. İnsan kapitalının formalaşması və reallaşması prosesində asimmetriyanın müsbət dinamikasının təmin edilməsi üçün dövlət tənzimlənməsi metodları nəzərdən keçirilmişdir.** Dövlət səviyyəsində insan kapitalına xərclər və reallaşması nəticələrinin asimmetriyası dinamikası fərdi və korporativ insan kapitalı ilə sıx korrelyasiyadadır. Bununla yanaşı onun özünün xüsusiyyətləri vardır

və o, dövlətin fiskal siyasətinin təsir etdiyi institusional asimmetriya xarakteri daşıyır. İnsan kapitalının formalaşması üçün sərf edilən vəsaitlər əsasən dövlət büdcəsindən xərclənir, bu da makroiqtisadi səviyyədə xərclər və nəticələr asimmetriyası deməkdir. Məsələ burasındadır ki, vergini dövlətə ölkənin bütün vətəndaşları ödəyirlər, təhsil sahəsi isə heç də bütün vətəndaşları eyni səviyyədə əhatə etmir. Burada söhbət ali və peşə ixtisası təhsilindən gedir. Çünki, bu gün inkişaf etmiş dövlətlərin əksəriyyətində və həmçinin inkişaf etməkdə olan dövlətlərdə ibtidai və orta təhsil ödənişsiz və icbaridir.

Təhsil sahəsinə dövlət investisiyalarının verimliyi müxtəlif formalarda özünü büruzə verir. Onlardan biri də vergi ödənişləridir. Ali təhsili alan insan bütün fəaliyyəti dövrü ərzində ödədiyi gəlir vergisi və sosial ödənişlərin ümumi həcmi orta təhsilli insanın ödədiyindən bir neçə dəfə çoxdur. Beləliklə, belə bir qanunauyğunluq yaranır ki, vergi ödənişlərinin artması ilə dövlətin insan kapitalının formalaşmasına sərf etdiyi investisiyalar artır və insan kapitalına investisiyaların artması isə vergi ödənişlərini artırır.




**Sxem 4. İnsan kapitalına dövlət investisiyaları və vergi ödənişləri arasında qarşılıqlı təsir**

*Mənbə: Müəllif tərəfindən hazırlanmışdır*

Sxemdə çox aydın təsvir olunmuşdur ki, vergilər insan kapitalının formalaşmasının investisiya bazasını təşkil edir. Göründüyü kimi onlar bütünlükdə iqtisadiyyatın inkişafını təmin edir. Eyni zamanda insan kapialına investisiyalar dövlət büdcəsinə vergi ödənişlərinin artmasını, o da öz növbəsində isan kapitalının inkişaf etməsini təmin edir. Həmçinin vergi ödənişlərinin səviyyəsindən cəmiyyətin qeyri-iqtisadi sahəsinin inkişaf səviyyəsi asılıdır və uyğun olaraq təhsil, səhiyyə, mədəniyyət institutları vasitəsi ilə insan kapitalının formalaşması

imkanları artır. Beləliklə, müsbət institusional asimmetriya müsbət makroiqtisadi multiplikativ effektə səbəb olur.

Son illərdə Azərbaycan dövləti insan kapitalının formalaşması, inkişafına və reallaşmasına diqqəti artırmışdır. Azərbaycan Respublikasının Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol xəritəsi haqqında" Fərmanında respublikamızda peşə təhsili və təhsil sahəsinin inkişafına xüsusi bəndlər həsr edilmişdir. Bu, yalnız peşə təhsili üçün deyil, ölkənin bütün təhsil məkanını əhatə edən aktual məsələni - təhsil müəssisələrində hazırlanan kadrların milli iqtisadiyyatın tələblərinə cavab verə bilməsi və inkişaf etməkdə olan əmək bazarının tələblərinə uyğunsuzluq (asimmetriyasını) məsələsini gündəmə gətirir. Deyilənlərlə yanaşı, 2021-ci ilin fevral ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev strateji əhəmiyyətli sənəd imzaladı. Həmin sənəd "Azərbaycan 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri" dir ki, hansında ki, 5 əsas prioritet istiqamətlər içərisində insan kapitalı amili xüsusi olaraq seçilir

**Müddəa 4. İnsan kapitalının formalaşması və reallaşması prosesində yaranan xərclərin asimmetriyasının aradan qaldırılmasının beynəlxalq təcrübə və milli xüsisiyyətlərinin müqayisəli təhlili həyata keçirilmişdir.** Burada ilk növbədə milli səviyyədə təhsil xərcləri nəzərdən keçirilir- bu dövlət və özəl sektorun təqvim ili ərzində xərclərinin məcmu həcmidir. Buraya həmçinin ÜDM-də faiz şəklində bütün səviyyələrdə dövlət büdcəsi xərcləri, özəl fondların xərcləri, xarici borclar, qrantlar və beynəlxalq təşkilatların, qeyri-hökumət təşkilatlarının ianələri daxildir.

**Cədvəl 1. Təhsil xərclərinin müqayisəli təhlili**

| Ölkə | ABŞ | Türkiyə | Rusiya | Azərbycan | Gürcüstan |
|---|---|---|---|---|---|
| ÜDM-də xərclər, %-lə | 6,1 | 3,4 | 3,7 | 4,3 | 3,6 |

*Mənbə: https://data.worldbank.org/indicator/SE.XPD.TOTL.GD.ZS (2020)*

İnsan kapitalının digər mühüm indikatoru səhiyyə sahəsinə aiddir və müvafiq olaraq səhiyyədə dövlət və özəl sektorun təqvim ilində xərcləri hesablanır. Burada eyni zamanda ÜDM-də faiz şəklində bütün səviyyələrdə dövlət büdcəsi xərcləri, özəl fondların xərcləri, xarici borclar, qrantlar və beynəlxalq təşkilatların, qeyri-hökumət təşkilatlarının ianələri göstərilir.

**Cədvəl 2. Səhiyyə xərclərinin müqayisəli təhlili**

| **Ölkənin adı** | ABŞ | Türkiyə | Rusiya | Azərbaycan | Gürcüstan |
|---|---|---|---|---|---|
| ÜDM-də xərclər,%-lə | 18,8 | 4,6 | 7,6 | 4,6 | 7,6 |

*Mənbə: https://data.worldbank.org/indicator/SH.XPD.CHEX.GD.ZS (2020)*

İnsan kapitalının formalaşmasının mühüm hissəsindən biri ölkənin elmi potensialı, həmçinin elmə çəkilən xərclərdir (R&D). Bununla əlaqədar qeyd edilən sahədə xərclərin müqayisəli təhlili verilmişdir.

**Cədvəl 3. Elm sahəsinə xərclərin müqayisəli təhlili**

| **Ölkənin adı** | ABŞ | Rusiya | Türkiyə | Azərbaycan | Gürcüstan |
|---|---|---|---|---|---|
| ÜDM-ə nisbətdə xərclər | 3,5 | 1,1 | 1,1 | 0,2 | 0,3 |

Mənbə: *https://data.worldbank.org/indicator/GB.XPD.RSDV.GD.ZS (2020)*

Yuxarıda göstərilən məlumatlara əsasən Azərbaycanda elmə sərf edilən xərclərin ÜDM-dəki %-lə çəkisi qeyri-qənaətbəxş sayılır. Elm sahəsinə xərclərdə lider ölkələr İsrail, Cənubi Koreyadır ki, yüksək inkişaf səviyyəsinə keyfiyyətli insan kapitalı formalaşdıran sahələrə vəsaitlər sərf etmək hesabına nail olmuşlar.

Dünya ölkələrinin əksəriyyətində olduğu kimi Azərbaycanda da insan kapitalının formalaşması və reallaşması arasında asimmetriya mövcuddur və müxtəlif formalarda təzahür edir. Nümunə üçün qeyd etmək lazımdır ki, Azərbaycanda ali təhsil məktəblərinin məzunlarının bir qismi öz ixtisasları üzrə çalışmırlar. Bu isə o deməkdir ki, onların təhsilinə vəsait xərcləyən dövlət və fərdin özü təhsil resursundan istifadə edilmədiyinə görə vaxt və vəsait itkilərinə məruz qalır. İnsan kapitalının formalaşması və reallaşmasındakı belə bir aspekti fri rayder (free rider problem) problemi və ya “biletsiz effekti” ilə müqayisə etmək olar. Bütün bunlar dövlətin əhalini ödənişsiz ictimai nemətlərlə təmin etmək istəyi və fri rayderin heç bir xərc çəkmədən, yaxud çox az vəsait sərf etməklə, digərləri kimi nemətlərdən istifadə etməsi ilə əlaqədardır.

Xarici asimmetriya, ölkədən yüksək ixtisaslı insan kapitalının miqrasiyası ilə bağlı olaraq. Bu gün bir çox inkişaf etmiş ölkələr, həmçinin şirkətlər yüksək ixtisaslı kadrları cəlb edir ki, bu da kadr miqrasiyaları müşahidə edilən ölkənin gələcək inkişafına əngəl törədir. Azərbaycan Respublikasının statistik məlumatlarına əsasən ölkədən miqrasiya ötən illərə nisbətən hazırda azalmışdır. Ancaq bu sabit

tendensiya deyil, qalxma və enmələrlə müşayiət edilir.

Miqrasiyanın azalmasına baxmayaraq, beyin axını, yüksək ixtisaslı kadrların, tələbələrin ölkədən getməsi hələ də Azərbaycanda gündəmdə olan məsələlərdəndir. Dövlətin başlıca vəzifələrindən biri həmin kadrların ölkəyə yenidən geri cəlb edilməsi metodlarının tapılmasıdır. Ölkəyə miqrantların geri qayıtmasına təsir edən miqrasiyanın əsas səbəbləri və şərtlərini müəyyənləşdirmək üçün miqrasiya etmiş soydaşlarımız arasında sorğu keçirilimişdir. Sorğularda müxtəlif ölkələrdə yaşayan 100 respondent iştirak etmişdir. Həmin ölkələr əsasən ABŞ, Kanada, Avropa ölkələri, həmçinin Yaponiyadır. Sorğunun nəticələri qrafikdə əks olunmuşdur.




**Qrafik 3. Azərbaycanda insan kapitalının formalaşması və reallaşmasına olan xərclərin və nəticələrin xarici asimmetriyasının səbəbləri**

*Mənbə: Sorğu müəllif tərəfindən hazırlanmışdır*

Yuxarıda göstərilən amillərin təhlili göstərir ki, emiqrantların ölkənin sosial-iqtisadi həyatında iştiraka cəlb edilməsi üçün, həmçinin gələcəkdə miqrasiyanın qarşısının alınması üçün hansı vasitələrdən istifadə etmək lazım olduğunu göstərir.

**Müddəa 5. İnsan kapitalının formalaşmasının bütün səviyyələrində (fərdi, korporativ, milli) əsas məqsəd ilk növbədə təhsil və səhiyyəyə qoyulan investisiyalardan gələn gəlirlərin müəyyənləşdirilməsidir. Bunları nəzərə alaraq, insan kapitalının formalaşması mərhələsində onun verimliyindən olan gözləntilərdən bəhs etmək olar.** Minser tənliyi ümumi şəkildə imkan verir ki, fərdin

təhsilinə sərf edilən investisiyalarının verimliliyi müəyyənləşdirilsin. Burada fərdin qazancı (əmək haqqı) təhsil, ixtisasın artırılması, həmçinin iş təcrübəsi kimi amillər nəzərə alınır. Minserin tənliyi aşağıdakı kimidir

$$\ln Y = \beta_0 + \beta_S S + \beta_1 \text{experience} + \beta_2 \text{experience}^2 + \varepsilon$$

Burada In Y-fərdin müəyyən vaxt ərzində əmək haqqıdır.

$\beta_0$ – təhsili olmayan fərdin əmək haqqıdır

S-təhsilin alınması illəri

Experience-iş təcrübəsidir

$\varepsilon$ - təsadüfi dəyişən

Minserin yuxarıda göstərilən tənliyinə əsasən belə bir qənaətə gəlmək olar ki, fərdin əmək haqqının kəmiyyəti təhsil müddətinin və iş təcrübəsinin artması ilə artır. Daha sonra Minser tənliyinin müxtəlif variasiyaları yarandı. Bu variasiyalara təhsilin keyfiyyəti, təhsil müddəti, ölkələr və regionların iqtisadi inkişaf səviyyəsi və s. parametrlər daxil edilmişdir. Lakin nisbətən daha keyfiyyətli modifikasiya kimi İsrail alimi Yoram Ben-Poratın hesablaması göstərilə bilər. O, öz əsərlərində insan kapitalının təkrar istehsalı prosesini fərdin bütün ömür boyu davam etdiyi fikrini irəli sürmüşdür. O, fərdin insan kapitalının yeni vahidlərini əldə etmək üçün həyatının cari dövründə xərclədiyini və qazanmaq üçün daima özünə investisiya qoyduğunu iddia edir. Beləliklə, investisiyalar insan kapitalının istehsalında onun öz şəxsi vaxtının sərf edilməsinin nəticəsi kimi çıxış edir;

$$Q_t = (S_t K_t)^b, \quad 1 \geq b \geq 0$$

burada, $Q_t$ – t ili ərzində istehsal edilən insan kapitalı vahidinin kəmiyyətidir.

$S_t$ – “istehsal”a investisiya edilən insan kapitalının payıdır ($0 \leq S_t \leq 1$);

$K_t$ – t müddətinin əvvəlində insan kapitalıdır.

b –insan bacarığının, qabiliyyətinin parametrləridir ($0 \leq b \leq 1$).

Yuxarıda göstərilənlər əsasında Ben Poratın modeli qurulur. Model 3 hissədən ibarətdir.

1.$C_t = w\, S_t\, K_t$ - alternativ xərclərdir (itirilmiş mənfəətlər) $S_t K_t = Q_t^{1/b}$

2.xərclər $C = w\, Q_t^{1/b}$, $dC_t/dQ_t = (w/b)\, Q_t^{(1-b)/b}$

3.gəlirlər: $B_t = PV(w, i)\, Q_t = (w/i)\,(1 - 1 / [(1+i)^{65-t}])\, Q_t$

Ben-Poratın modelində fərd öz insan kapitalına bütün ömrü boyu təhsil prosesi vasitəsi ilə investisiya qoyuluşu həyata keçirir. Bütün bunların nəticəsində bütöv bir konsepsiya yaranmışdır – Education Throughout the Life. Bu konsepsiyada önəmli olan fasiləsiz təhsildir ki, insanın öz peşəsində daha səriştəli olmasına imkan yaradır və o, daha sonra əldə etdiyi təcrübə və biliyini böyüməkdə olan nəsillərə ötürür.

Göründüyü kimi insan kapitalının formalaşmasına təsir göstərən çox saylı amillərin olması onun ölçülməsi imkanlarını məhdudlaşdırır. Ancaq Qlobal İqtisadi Forum belə bir hesablamanı Qlobal İnsan Kapitalı İndeksi (Human Capital Index) şəklində bir sıra istiqamətlər üzrə aparır: qabiliyyət, inkişaf, yerləşdirmə, nou-hau. İndeks insan kapitalının inkişaf səviyyəsindən asılı olaraq dünyanın 130 ölkəsini əhatə edir. İnteqral göstərici kimi həmin indeks ölkələrin əhalisini 5 yaş qrupu üzrə əhatə etməklə ölkələrdə insan kapitalının vəziyyətini müəyyən edir.

Dünya Bankı metodologiyasına görə İnsan Kapitalı İndeksi insan kapitalının həcmini aşağıdakı göstəricilərə görə hesablayır:

1. Formal (məktəb) təhsil yolu ilə insan kapitalının toplanması prosesi başlanana qədər bu gün anadan olan uşaqların sağ qalması. Bu göstərici 5 yaşına qədər olan uşaq ölümləri göstəriciləri vasitəsi ilə hesablanır;

2. 18 yaşına qədər təhsil müddəti nə qədər davam edəcəkdir və hansı keyfiyyətdə olacaqdır, yəni əldə edilən biliklərin həcmi gələcək təhsil və əmək fəaliyyəti üçün nə qədər yetərli olacaqdır;

3. Sağlamlıq komponentində iki göstəricidən istifadə olunur; sağlamlıq səviyyəsinə görə ölkədə ümumi mühitin vəziyyəti, 15 yaşlılar üçün 60 yaşına qədər məhsuldar həyat fəaliyyəti gözləntiləri.

İnsan kapitalının indeksi (İKİ) həyatda sağ qala bilmək, təhsil, sağlamlıq göstəricilərinin hasili kimi hesablanır və nisbi məhsuldarlığa verdiyi töhvə kimi qiymətləndirilir:

$$\text{İKİ} = \text{sağqalma} \times \text{təhsil} \times \text{sağlamlıq}$$

2020-ci ildə Azərbaycan insan kapitalı indeksinə görə 69-cu yerdədir. İndeks 0,58-ə bərabərdir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

1.Dissertasiyaвф insan kapitalının formalaşması və reallaşması prosesində xərclər və nəticələr arasında müsbət asimmetriyanın olduğu novasiya təklif edilir və ona, müasir texnoloji tərəqqinin üstünlüklərindən istifadə edərək, nail olmağa çalışmalı olduğu qənaətinə gətirilir. Eyni zamanda, xərclərin nəticələrdən az olmasını göstərmək kifayət deyil. Bu baxımdan, insan kapitalına investisiya kimi iqtisadi səmərəliliyin öyrənilməsi təklif olunur. Burada asimmetriyanı məsrəflər və nəticələrdəki fərqlərlə deyil, həm də xərclər və nəticələrin subyektlərindəki fərqlərlə xarakterizə etməyə ehtiyac var.

2. Dissertasiyada insan kapitalının formalaşması və reallaşması prosesində asimmetriyanın çoxsəviyyəli təhlili konsolidasiya edilmiş sosial-iqtisadi effekt kontekstində nəzərdən keçirilir. Bu, müxtəlif ölkələrin beynəlxalq rəqabət qabiliyyətlilik və insan kapitalı indekslərinin korrelyasiya göstəricilərində özünü göstərir.

3. İşdə kadrların bir ölkədən digərinə miqrasiyası kontekstində insan kapitalının formalaşması və reallaşması prosesində xərclər arasında asimmetriyanın öyrənilməsi xarici asimmetriya kimi müəyyən edilmişdir. Bu beynəlxalq asimmetriya forması milli insan kapitalının reallaşdması potensialına və dünya ölkələri və regionları arasında mövcud bərabərsizliyə əhəmiyyətli təsir göstərir. Dissertasiya işində onun aradan qaldırılması əmək bazarında tələb və təklif arasında simmetriyanın təmin edilməsinin institusional siyasəti ilə bağlıdır.

4.Bir çox inkişaf etmiş, inkişafda olan iqtisadiyyatların təcrübələrinə əsaslanaraq Life-long learning və ya EducationThroughtoutlife təcrübəsindən istifadə edilməsi zəruri hesab edilir. Daim dəyişən bazar tələbi və insan kapitalının keyfiyyəti arasında simmetriyanı qorumaq üçün işçilərin ixtisaslarının daimi olaraq təkmilləşdir. Bu baxımdan istehsalat müəssisələri ilə təhsil müəssisələri arasında sıx əməkdaşlıq təklif olunur. Bu, ali təhsil müəssisələrinin və sənaye müəssisələrinin klasterlərinin yaradılmasını nəzərdə tutur. Bundan əlavə, artıq tədris müddətində tələbələr öz ixtisasları üzrə praktiki bacarıqlara yiyələnə biləcəklər.

5.Dissertasiya işində insan kapitalının milli-mədəni xüsusiyyətləri problemlərinə xüsusi diqqət yetirilir. İnsan kapitalının həm formalaşması, həm də reallaşması spesifik milli-mədəni xüsusiyyətlərə

malik olan müəyyən mühitdə baş verir. Bu, insanın qeyri-iqtisadi, sosial-mədəni mənşəyinə diqqəti aktuallaşdırır, çünki fəaliyyətin praktiki nəticələri təkcə bilik, ixtisas, bacarıqlardan deyil, həm də adət-ənənələrdən, dəyərlərdən və insanların davranış stereotiplərindən çox asılıdır. Ailə bağlarının ənənəvi olaraq həyatı boyu insanı dəstəklədiyi və möhkəm olduğu ölkələr üçün burada simmetriya xüsusilə vacibdir. Ən əsas insan kapitalı ailədə formalaşır, həyat tərzinə və düşüncə tərzinə, həyat ssenarisi təlimatlarına, təhsil və ixtisas seçiminə dair qərarlara böyük təsir göstərir.

**Müəllifin dərc edilmiş elmi əsərlərinin siyahısı.**


1. Сущность и характеристики человеческого капитала. "İqtisadiyyatın davamlı inkişafi problemlər, perspektivlər" Beynəlxalq elmi konfransın materialları, Sumqayıt,2016, s. 512-514
2. The effectiveness of investment in human capital. Social educational project of Improving Knowledge in Economics, Journal Association1901 SEPIKE, Germany, Frankfurt, 2016, p. 114-116
3. Потребительские расходы как инвестиции в человеческий капитал. Beynəlxalq hüquq və inteqrasiya problemləri elmi-analitik və praktiki jurnal №2(46), Bakı, 2016, s. 78-82
4. Индивидуальный уровень формирования человеческого капитала. Научно-практический журнал «Современная наука: актуальные проблемы теории и практики», Серия Экономика и право №11, Moskva, 2016, s. 10-13
5. Структурно-уровневая симметричность затрат и результатов при формировании и реализации человеческого капитала. Bakı Universitetinin xəbərləri. Sosial-siyası elmlər seriyası №1, Bakı, 2017, s. 59-66
6. Роль государства в формировании человеческого капитала. Конкурентоспособность в глобальном мире: экономика, наука, технологии. Научный журнал, №10(часть 4), Moskva, 2017, s. 475-477
7. Формы асимметрии затрат и результатов при формировании и реализации человеческого капитала. Материалы Международного молодежного научного форума «ЛОМОНОСОВ-2018», Moskva, 2018, s.1-2
8. Международный опыт формирования и реализации человеческого капитала. Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri

Beynəlxalq elmi konfrans, Gəncə, 2018, s. 241-244

9. Теоретические и эмпирические исследования отдачи от человеческого капитала. AMEA-nın xəbərləri İqtisadiyyat seriayası elmi-praktiki jurnal, Bakı, 2018, s. 53-58
10. Forms of the asymmetry of costs and results in the formation and realiztion of human capital. British journal for social and economic research, Science and beyond publishing. Vol.3, Issue 4, UK, London, 2018, p.17-22
11. Человеческий капитал в стратегии развития национальной экономики: достижения и проблемы. AMEA İqtisadiyyat institutunun 60 illik yubileyinə həsr olunmuş "İqtisadi artım və ictimai rifah" mövzusunda beynəlxalq elmi-praktik konfrans, Bakı, 2018, s.643-650
12. Теоретические основы и практика многоуровневого исследования человеческого капитала. İpək yolu, No.4, Bakı, 2018, s.81-90
13. Институциональные аспекты формирования человеческого капитала. Форсайт «Россия»: новое индустриальное общество. Будущее. Сборник докладов Санкт-Петербургского Международного Экономического Конгресса, Sankt-Peterburq, 2019, s. 438-446
14. Перспективы и приоритеты развития человеческого капитала в Азербайджане. Azərbaycan Respublikasının Əmək və əhalinin sosial müdafiəsi nazirliyinin 100 illik yubileyinə həsr olunmuş "Azərbaycanda sosial müdafiə sisteminin inkişafı: dünən, bu gün və sabah" mövzusunda beynəlxalq elmi praktiki konfrans, Bakı, 2019, s. 362-366
15. Human capital as a strategic resource of economic development. «Economic and social development» 55th International scientific conference on economic and social development, Vol. 2/4, Baku, 2020, p.609-616
16. Assymetry in the process of forming and realizing human capital and ways to overcome it. Вопросы Политической Экономии, №1 (25) — М.: Культурная революция, Moskva, 2021, s.184-196
17. Миграционный аспект асимметрии в процессе формирования и реализации человеческого капитала. Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri. İl 10, Cild 10, Bakı, İyul-Sentyabr, 2022, s.124-134

Dissertasiyanın müdafiəsi "17" noyabr 2023-cü il tarixdə saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutunda fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "09" sentyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 06.10.2023.
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (36864 işarə)
Ofset kağızı №1.Tiraj 30.

“AA – Poliqraf” istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.
Əlaqə üçün: capevi@internet.ru – (055) 201-28-09